# FİLMOQRAFİYA

### *10 dəqiqə poeziya (qısametrajlı sənədli film, 1965)*

Rejissor və ssenari müəllifi Arif Babayev tərəfindən 1965-ci ildə çəkilmişdir. Film Bakı televiziya studiyasında istehsal edilmişdir. Film Azərbaycan şairi Nəbi Xəzrinin məhəbbət haqqında poeziyasından nümunələri lirik səpgidə tamaşaçılara təqdim edir.

### *Çiçəklənən Abşeron (sənədli televiziya filmi, 1967)*

***Rejissor:*** *Nina Mustafayeva*
***Ssenari müəllifi:*** *Nəbi Xəzri*
***Operatorlar:*** *Faiq Qasımov, Vladimir Konyagin*
***Bəstəkar:*** *Telman Hacıyev*
***İstehsalçı:*** *"Azərbaycanfilm" Kinostudiyası*
***İlk baxış tarixi*** ***:*** *1967*
***Texniki məlumatlar:*** *3 hissə, 830 metr 35 mm*
***Rəng:*** *rəngli*

### *Sahil bağı (film, 1967)*



Filmdə iki gəncin gözü ilə Bakıdakı dəniz sahilinin bir günlük həyatına nəzər salınır. 1967-ci ildə Kiyevdə "Prometey-67" zona festivalında film rejissor debütünə görə diplom almışdır. 1968-ci ildə Moskvada Ümumittifaq televiziya filmləri festivalında film münsiflər heyətinin diplomunu almışdır.

*Film üzərində işləyənlər:*

Quruluşçu rejissor: Vasif Babayev

Ssenari müəllifi: Nəbi Xəzri

Quruluşçu operator: Ömər Qazıyev

Bəstəkar: Emin Sabitoğlu

Səs rejissoru: İsgəndər Kərimov

*Rollarda:*

Ofeliya Sənani

Kamal Qasımov

### *Zirvə buludu (film, 1972)*

Film görkəmli Azərbaycan şairi Nəbi Xəzrinin yaradıcılığına həsr olunmuşdur. Filmdə şairlərdən Robert Rojdestvenski, Yeqor İsayev, Sergey Vasilyev, Yevgeni Yevtuşenko Nəbi Xəzri haqqında söz deyirlər. Çəkilişlər sinxron aparılmışdır.

*Film üzərində işləyənlər:*

Rejissor: Vasif Babayev

Ssenari müəllifi: İmran Qasımov

Operator: Nəriman Şıxəliyev

### *Anlamaq istəyirəm (film, 1980)*




Anlamaq istəyirəm filmi rejissor Oqtay Mirqasımov tərəfindən 1980-ci ildə ekranlaşdırılmışdır. Film Mərkəzi Televiziyanın (Moskva) sifarişi ilə "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Film məhv olmuş arzular, xoşbəxtlik uğrunda mübarizə aparılmasının acı nəticəsi, iki sevən gəncin uğursuz məhəbbəti haqqında niskilli hekayədir. Aktrisa Həmidə Ömərovaya Çinarə roluna görə Lenin komsomolu mükafatı verilmişdir. Filmdə əsas rolları Revaz Çxikvişvili, Həmidə Ömərova, Mikayıl Kərimov, Mayya İsgəndərova, Həsən Məmmədov və Həsənağa Turabov ifa edirlər. Film AZTV- də dublyaj olunmuşdur.

İki nəfər - Çinarə (*Həmidə Ömərova*) və Rüstəm (*Revaz Çxikvişvili*) tələsmədən sahil bağında addımlayır, nə barədə isə söhbət edirlər. Vaxt var idi ki, onlar bir-birilərini sevir, bir arzu ilə yaşayırdılar: xoşbəxt olmaq! Lakin Çinarə başqasına ərə gedir, sonra başa düşür ki, xoşbəxtlik üçün nə içi xarici mebellə dolu mənzil, nə gələcəyi parlaq olan ər, nə də qayğısız həyat lazım deyilmiş. Xoşbəxtlik üçün yalnız o özü, sevgilisi Rüstəm, bu coşub daşan, bəzən də mürgüləyən dəniz, dənizin üzərində uçuşan, hərdən ləpələrə baş vuran qağayılar, dəniz kənarında topla oynayan körpə gülüşləri, bir də sevgilinin şirin, ürək açan sözləri gərəkmiş: "Sən mənim səadətim, sən mənim qəlbim, sən mənim səmam... səmam... yüksək səmamsan...". Çinarə xoşbəxtliyini geri qaytarmaq istəyir. Ancaq o, Rüstəmi artıq həmişəlik itirmişdir...

Film məhv olmuş arzular, xoşbəxtlik uğrunda mübarizə aparılmasının acı nəticəsi, iki sevən gəncin uğursuz məhəbbəti haqqında niskilli hekayədir. Film şair Nəbi Xəzrinin "Əks-səda" pyesinin motivləri əsasında yaradılmışdır.

*Film üzərində işləyənlər:*

Rejissor: Oqtay Mirqasımov

Əsər müəllifi: Nəbi Xəzri

Ssenari müəllifi: Nəbi Xəzri, Leonid Juxovitski, Oqtay Mirqasımov

Operator: Ələsgər Ələkbərov

Rəssam: Firəngiz Qurbanova

Bəstəkar: Rafiq Babayev

**Şeir mənim üçün bir kainatdır (film, 1984)**




Kinolent SSRİ və Azərbaycan Dövlət Mükafatları laureatı, respublikanın xalq şairi Nəbi Xəzrinin çoxcəhətli fəaliyyətinə həsr olunmuşdur. Filmdə tanınmış şairin şeirləri səslənir, ölkənin şairləri, incəsənət xadimləri və alimləri həmyerlimizin yaradıcılığı barədə fikir söyləyirlər.

*Film üzərində işləyənlər:*

Rejissor: Cahangir Zeynallı

Ssenari müəllifi: Rəfiqə Hüseynova

Operator: Azər Salayev, Rəfael Salamzadə

Bəstəkar: Firəngiz Əlizadə

Səs operatoru: Şamil Kərimov

***Nəbi Xəzri (film, 1987)***

Film tanınmış Azərbaycan şairi Nəbi Xəzrinin həyat və yaradıcılığından bəhs edir.

*Film üzərində işləyənlər:*

Rejissor: Vasif Babayev

Ssenari müəllifi: Elşad Quliyev

Operator: S.Bədəlov

Səs operatoru: Ramiz Bağırov

***Atillanın atlıları (film, 2002)***

Atillanın atlıları tammetrajlı film-tamaşası rejissor Sevil İbrahim tərəfindən 2002-ci ildə ekranlaşdırılmışdır. Azərbaycan televiziyasında istehsal edilmişdir. Əsərdə olduğu kimi filmdə də əvvəldən axıradək türklərdə adət ənənələr, türklərin mərdliyi və qorxmazlığı tərənnüm edilmişdir. Əsas rolları Ramiz Məlik, Qönçə Ağabəyli, Rafiq Əzimov və Abbas Qəhrəmanov ifa edirlər.

Filmdə Atillanın (Ramiz Məlik) Şaman baba (Rafiq Əzimov) ilə söhbəti, Şaman babanın məsləhətləri, Atillanın kralın qızı Qrimildaya (Qönçə Ağabəyli) aşiq olması, onunla evliliyi, toy

günündə qızın atası (Abbas Qəhrəmanov) tərəfindən onun zəhərlənməsi və Qrimildanın könüllü ölümə getməsi əks etdirilir.

Əsərdə olduğu kimi filmdə də əvvəldən axıradək türklərdə adət ənənələr, türklərin mərdliyi və qorxmazlığı tərənnüm edilmişdir. Film Nəbi Xəzrinin eyniadlı poeması əsasında ekranlaşdırılıb.

*Filmin üzərində işləyənlər:*

Əsərin müəllifi: Nəbi Xəzri
Rejissor: Sevil İbrahim
Operator: Əlövsət Cəlilov
Rəssam: Oqtay Quliyev